# İMAMZADƏ

Görkəmli şərqşünas alim, akademik Ziya Bünyadov öz tədqiqatlarında "imamzadə"nin imamların nəslinə verilən ünvan olduğunu göstərmişdir. /Bax: Z.Bünyadov - "Dinlər, təriqətlər, məzhəblər" kitabı, Bakı, 1997-ci il, səh.103/

"İmamzadə" İmam Əli nəslindən olan şəxslərin dəfn olunduğu yerdə qəbrin üstündə inşa edilmiş mavzoley və ibadət obyekti olan məscidlərə verilən ənənəvi addır. Həzrət Əlini əvəz edənlər də "imam" titulunu daşımışlar.

Hazırda Gəncə şəhərindən 7 km aralıda, Köhnə Gəncənin dağılmış hissəsindən şimal tərəfdə yerləşən İmamzadə mavzoleyinin ətrafında divar, darvaza və bir neçə tikililər olan məscidlər, təkiyələr, qəbrüstü abidələr inşa edilmiş və bu tikililər mavzoleyi hər tərəfdən əhatə etməklə böyük ibadət kompleksini təşkil edir. Müxtəlif tikililər əhatəsində olan bu mavzoley bütöv kompleksin ən qiymətli abidələrindən biridir. İmamzadə mavzoley kompleksinin digər əhəmiyyəti ondan ibarətdir ki, məhz bu əzəmətli tikilinin simasında ötən əsrlərin arxitektura ənənəsinə sonrakı illərdə inşa olunmuş arxitektura nümunələri ilə üzvi surətdə bağlı olmasını sübut etmək üçün ən gözəl vasitədir. Mavzoleydə 1878-1879-cu illərdə aparılan bərpa işləri zamanı burada bir yazı diqqəti cəlb edir. Həmin yazıda göstərilir ki, mavzoley İmam Məhəmməd Bağır oğlu, təqribən eramızın VIII əsrində yaşamış və hicri 120-ci ildə vəfat etmiş İbrahimin qəbri üzərində ucaldılmışdır.

İmamzadə mavzoleyinin ikinci bir adı "Göy İmam"dır ki, bu da mavzoleyin gümbəzinin göy rəngdə olmasıdır.

Tədqiqatçı - alimlər İmamzadə mavzoleyinin İmam Məhəmməd Bağırın VIII əsrdə yaşamış, hicri 120-ci ildə vəfat etmiş oğlu İbrahimə məxsus olmasını göstərməklə, bu tikilinin həmin illərdə inşa edilməsini qəti inkar etmişlər. Görkəmli Azərbaycan alimləri M.Hüseynov, L.Bretanitski, Ə.Salamzdaə 1963-cü ildə Moskvada nəşr etdirdikləri "İstoriə Arxitekturı Azerbaydjana" kitabında sübut edirlər ki, İmamzadə mavzoleyi İmam övladı İbrahimin vəfat etdiyi dövrlərdə inşa edilə bilməzdi və bunun uzaq keçmişlərdə inşa edilməsinin iddia edilməsi doğru olmazdı. /Bax: həmin kitab - səh.259/ Çünki, müsəlman Xilafəti dövründə yəni VIII əsrdə ümumiyyətlə inşa edilməmiş və yalnız Abbasilər Xilafətinin dövründə birinci mavzoleylər IX əsrdə peyda olmağa başlamışdır ki, bu da ən əvvəl Xilafətdə ən yüksək vəzifə tutan dövlət məmurlarının şərəfinə inşa olunmuşdur.

Beləliklə, mavzoleylər və dini tikililərin İmam nəslinə mənsub olanların qəbri üstə tikilməsi daha çox sonrakı dövrlərdə əmələ gəlmişdir. Bu baxımdan, Səmərqənd vilayətinin Əfrasiyab adlı şəhərciyində inşa edilmiş və "Şahi-Zində" adlanan mavzoley misal göstərilə bilər. Fars dilindən tərcüməsi "Diri şah" mənasını verən bu kompleks inanca görə Məhəmməd Peyğəmbərin və Əlinin əmisi Abbasın oğlu Kussamın qəbrinin üstündə inşa edilmişdir ki, hazırda həmin mavzoleyin tikilmə tarixi eramızın 1336-cı ili göstərilir. Bununla da tarixçi - alimlərimiz İmamzadə Kompleksinin tikintisinin mümkünlüyünü XIV əsrin sonu, XVII əsrin əvvəllərinə aid edirlər.

Onu da qeyd etmək lazımdır ki, İmamzadə mavzoleyi hələ çox keçmiş illərdə müxtəlif cür adlandırılmışdır. 1886-cı ildə çap olunmuş, "Zaqafqaz Məhəmmədlərinin ziyarət yerləri" adlı təqvimin 156-cı bölməsində bura "Göy məscid" və ya "İmamzadə" adlandırılmışdır.

Bərdə rayonunda olan İmamzadə - məscidi bu məmləkətdə saxlanan və böyük tarixi keçmişə malik arxeoloji abidələrdən olmuşdur. 1861-ci ildə Bərdədə məşhur səyyah Dorn buradakı köhnə məscidi görmüş, 1875-ci ildə nəşr etdirdiyi "Kaspiy" adlı əsərində yazmışdır: "Burada həmçinin İbrahimin adına köhnə İmamzadə mövcud olmuş və bu tikilinin haqqında sonralar heç bir məlumatlar saxlanılmamışdır. Ancaq bura indi də ziyarət olunan yerdir. Köhnə binanı bərpa etmək buranın sahibinə 3000 manat gümüş pula başa gəlmişdir. 1885-ci ildə nəşr olunmuş "1886-cı ilin Qafqaz təqvimi"ndə bu fikir təsdiq olunmuş və belə göstərilmişdir: "Cavanşir qəzasının Yelizavetpol Quberniyasının Bərdə kəndində yerləşən İmamzadə pirindəki qəbrin üstündə 1868-ci ildə məscid inşa edilmişdir". /Bax:göstərilən kitab - səh.265/

İmamzadə mavzoley kompleksi tikintisi orta əsrlər dövrünün ən nadir arxitektura nümunələri olmaqla, dini-ibadət və ziyarətgah kimi böyük əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixli 132 №-li Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ərazisində Dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsündə ölkə əhəmiyyətli daşınmaz abidə" kimi Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğundakı, köhnə Gəncədə yerləşən XVII-XIX əsrlərə aid "İmamzadə" kompleksi, yerli əhəmiyyətli abidə kimi Füzuli rayonunun Horadiz qəsəbəsindəki XIX əsrə aid "İmamzadə", Şərur rayonunun Xınlıqlar kəndindəki XVI-XVII əsrlərə aid "İmamzadə" Dövlət mühafizəsinə götürülmüşdür.

# TƏKİYƏ

Ərəb dilindən "danışma", "nəql etmə" sözlərinin azərbaycanca anlamını verən təkiyə epik əsərin, surətlərin vasitəsiz nitqi istisna edilməklə, tam mətni, müəllif mətnini çatdırma deməkdir. Təkiyə ədəbi növ kimi şeri, nəsri dramaturgiyadan fərqləndirən əsas əlamətdir.

Təkiyədə adətən aydınlıq, yığcamlıq, dəqiqlik və təbiilik əsas şərt olaraq əsərin qəhrəmanının /birinci şəxsin/ dilindən nəql olunan əsərlərdə müxtəlif təkiyələr şərti olaraq, sürətlərin nitqi kimi fərdiləşir. Akademik Ziya Bünyadov "Təkiyə" sözünün "təkkə" kimi işlədilməsi və "təkkə" sözünün türkcə olmasını göstərmiş və onun "dərvişlərin zaviyəsi" olmasını bildirmişdir. /Bax:Z.Bünyadov: "Dinlər, təriqətlər, məzhəblər" kitabı, Bakı 1997-ci il səh.212./ "Zaviyə" sözü ərəbcədir, guşə deməkdir. İslam dövrünün ilk əsrlərində xristian rahibləri də kiçik müsəlman məscidlərini və ya ibadətxanaları zaviyə adlandırırdılar.

Məqrib ölkələrində zaviyə məsciddən, məktəbdən, övliya mədrəsəsindən, mehmanxanadan ibarət dini binalar kompleksinə deyilir. Zaviyə sufi qardaşları ardıcıllarının məskənlərinin adlarından biri idi, onların ayin və mədəni-maarif mərkəzi sayılırdı.

Təkiyələr məscidlərin ətrafında və ona yaxın olan yerlərdə tikilmiş və buraya məhərrəmlik mərasimləri zamanı yığışıb hicrətin 60-cı ilində Kərbala çölündə İmam Hüseyn və onun 72 nəfər ailə üzvünün Yezidin qoşunları tərəfindən qətlə yetirilməsi münasibətilə mərasimlər keçirilərdi. Həmin qanlı hadisələri çox canlı və dolğun surətdə birinci şəxsin dilindən nəql edən vaiz və ya molla təkiyəyə yığışan insanları ağladır, onlarda Yezid və onun tərəfdarlarına, eləcə də müsəlmanlara düşmən olanlara qarşı nifrət yaratmağa çalışmışdır. Bu guşəyə yığışanlar imama və onun övladlarına göz yaşı tökərdilər.

Sovet hakimiyyətinin varlığı dövrlərində mövcud olan təkiyələrin bir çoxu dağıdılmış və məscidlərdə bu mərasimlərin və ayinlərin icra edilməsinə qadağaların qoyulması ucbatından əhali əsasən seyidlərin yaşadıqları evlərdə təşkil olunmuş təkiyələrdə gizli olaraq təkiyələr təşkil edir, şəhid olanların xatirələrinə göz yaşları axıdır və bu guşədə ehsanlar paylayırdılar.

Astara rayonunda aşağıda göstərilən yerlərdə təkiyələr mövcud olmuşdur:

1. Qum kəndindəki təkiyə.
2. Ərcivan kəndindəki təkiyə.
3. Kakalos kəndindəki təkiyə.
4. Şiyəkəran kəndindəki təkiyə.
5. Pensər kəndindəki Kərbəlayi Şükür təkiyəsi.
6. Giləkəran kəndində Zoda adlı qadının evində təşkil olunmuş təkiyə.
7. Qum kəndində Leyla adlı qadının evində təşkil olunmuş təkiyə.
8. Giləkəran kəndində Miryaqub adlı seyidin evində təşkil olunmuş təkiyə.
9. Giləkəranda Mirəsgər adlı ağır seyidin ocağında təşkil olunmuş təkiyə.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixli 132 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarixi və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsündə" "ölkə əhəmiyyətli" abidə kimi Bakı şəhəri, 4-cü Böyük Qala döngəsi 5-də yerləşən XIII əsrə aid təkiyə, Culfa rayonunun "Gülüstan tarix-mədəniyyət qoruğunda Xanəgah kəndindəki XIV əsrə aid təkiyə, Astara rayonu Təngərüd kəndindəki təkiyə, Naxçıvan şəhəri Möminə Xatın türbəsinin yanındakı XVIII əsrə aid təkiyə dövlət mühafizəsinə götürülmüşdür.

**Əfqan ŞƏFİYEV,**
***YUNESKO-nun Beynəlxalq***
***Muzeylər Şurasının üzvü***